# BSU-da Azərbaycan Gənclər Günü qeyd olunub



***Dünən Bakı Slavyan Universitetində 2 fevral Azərbaycan Gənclər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlanıb.***

Tədbirdə çıxış edən BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi sahəsində müəyyən etdiyi strateji addımlar Onun layiqli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, reallığa çevrilib. O, Ulu Öndər Heydər Əliyevin gənclərə daim qayğı ilə yanaşdığını və bu gün qeyd edilən Gənclər Gününün də həmin qayğının təzahürü olduğunu bildirib. R.Novruzov gənclərin öz fəaliyyətləri ilə bu etimadı hər an doğrultduğunu və Prezident İlham Əliyevi daim dəstəklədiklərini, Onun rəhbərliyi altında dövlətçiliyimizin keşiyində mətanət və ləyaqətlə dayandıqlarını vurğulayıb.

Tədbirdə çıxış edən tərbiyə işləri üzrə prorektor, dosent Xanım Sultanovaya verilib. X.Sultanova çıxışında Gənclər Gününün yaranma tarixi barədə qısa məlumat verib. O, qeyd edib ki, Bakı Slavyan Universitetinin gəncləri ölkəmizdə keçirilən bütün daxili və beynəlxalq miqyaslı tədbirlərdə könüllü olaraq fəal iştirak edirlər.

Tədbir çərçivəsində universitetin ictimai həyatında fəal iştirakına görə fərqlənən 30 tələbəyə təşəkkürnamə təqdim olunub. Sonra II kurs tələbəsi Səfiyyə Mustafayeva BSU-nun Mətbuat Xidmətinin rəhbəri, dosent İbrahim Quliyevin müəllifi olduğu “Azərbaycan gəncləri” şeirini səsləndirib.

Tədbirin davamında Gənclər Günü ilə bağlı məruzələr dinlənilib. BSU-nun Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim Günay Vəliyeva “Uğurlu və xoşbəxt Azərbaycan gəncliyi”, YAP Nəsimi rayon təşkilatı BSU-nun ərazi ilk partiya təşkilatının gənclər birliyinin sədri, IV kurs tələbəsi Şirin Hüseynzadə və YAP-ın fəal üzvü, I kurs tələbəsi Ayxan Əzizov “BSU-nun bizə qazandırdığı uğur”, ərazi ilk partiya təşkilatının gənclər birliyinin müavini, II kurs tələbəsi Münasib Əliyev “Azərbaycan gəncləri idman arenalarında”, YAP-ın fəal üzvü, I kurs tələbəsi İradə Cəfərova “Heydər Əliyevin gənclərə verdiyi dəstək”, III kurs tələbəsi Əhməd Əhmədov “Azərbaycan Gəncləri” mövzularında çıxış ediblər.

Sonda BSU tələbələrinin ifasında vətənpərvərlik ruhlu şeir və mahnılar səsləndirilib.

***Zümrüd BAYRAMOVA***